# GƏDƏBƏY: Nailiyyətlər də var, həllini gözləyən məsələlər də

❒ ***“2016-cı il Gədəbəy üçün uğurlu il olmuş, rayonun inkişafı, sosial infrastrukturun yaradılması ilə bağlı həyata keçirilən işlər davam etdirilmişdir.***





Vətəndaşların çoxsaylı müraciətləri əsasında rayon mərkəzində 156 nəfərlik “Mərasim zalı”, ümumi sahəsi 4500 kvadratmetr olan yeni istirahət parkı, elektrik şəbəkəsinin, kənd təsərrüfatı və baytarlıq idarələrinin inzibati binalarının tikintisi başa çatdırılmış, şəhərdəki dördmərtəbəli inzibati binaya aqlay üzlük vurulmuş və işıqlandırma sistemi quraşdırılmışdır. Hazırda 108 şagird yerlik Şınıx kənd tam orta məktəbinin və Çalburundakı Qaraçay üzərindəki körpünün tikintisi davam etdirilir. Gədəbəy şəhərində öz gözəlliyi və müasir memarlıq üslubü ilə seçiləcək Heydər Əliyev Mərkəzinin tikintisinə başlanılıb.

Ölkə Prezidentinin 13 may 2016-cı il tarixli sərancamı ilə 5 yaşayış məntəqəsini birləşdirən, 7 min nəfər əhalinin istifadə etdiyi 9 kilometr uzunluğunda olan Novosaratovka-Çobankənd-Novoivanovka avtomobil yolunun tikintisi başa çatdırılmışdır. Eyni zamanda, Azərbaycan Kənd İnvestisiya Layihəsi-2 çərçivəsində rayonun 8 kəndində 102 kilometr kəndarası yollar təmir edilmişdir...”

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasına başlanılmış və regionların inkişafına yönəlmiş 3-cü Dövlət Proqramında rayonumuzun inkişafını təmin edən 17 tədbirin icrası nəzərdə tutulmuşdur”.

Yuxarıda qeyd olunan faktlar və rəqəmlər Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Yediyarovun 2016-cı ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş məruzəsindən götürülmüşdür. Rayon rəhbəri hesabat verərkən demişdir ki, ölkə başçısı cənab İlham Əliyevin qarşımıza qoyduğu vəzifələri yerinə yetirmək üçün biz hələ çox iş görməliyik. Xüsusilə Gədəbəyin kifayət qədər torpaq sahələrinə malik olmasını nəzərə alaraq əhalinin məşğulluğunun artırılması və yeni iş yerlərinin yaradılması istiqamətində daha təsirli tədbirlər görməliyik. İl ərzində rayona 11845 min manat investisiya cəlb olunmuş və daha 2680 min manat investisiyanın cəlb edilməsi nəzərdə tutulur. İstehsal və xidmət sahələrinin fəaliyyəti nəticəsində 220 iş yeri açılmış və daha 145 iş yeri yaradılacaqdır.

Rayonun iqtisadiyyatının əsasını əkinçilik və heyvandarlıq təşkil etdiyi üçün bu sahənin daha da inkişaf etdirilməsi istiqamətində işlər aparılaraq məhsul istehsalçılarına lazımi dəstək verilmiş və müvafiq kömək göstərilmişdir.

Kənd təsərrüfatı məhsullarının istehsalının artırılması ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında yaradılmış işçi qrupun keçən ilin iyununda rayona səfəri olmuş və Slavyanka kəndində fərdi təsərrüfatlara baxış keçirilmişdir. Tədbirin sonunda keçirilən müşavirədə mövcud vəziyyət və gələcək perspektivlər haqqında geniş müzakirə aparılmış, rayonda kənd təsərrüfatının inkişafı ilə bağlı təkliflər irəli sürülmüşdür.

2016-cı il ərzində rayonda 109,1 min ton kartof istehsal olmuşdur ki, bu da 2015-ci illə müqayisədə 5 min ton və ya 3,9 faiz çoxdur. Qeyd edək ki, əsas ərzaq məhsulları ilə özünütəminetmənin səviyyəsi kartof, ət, süd və süd məhsulları üzrə 100 faiz, yumurta üzrə 61 faiz, tərəvəz üzrə 38 faiz, taxıl üzrə 25 faiz təşkil etmişdir.

Dövlət Proqramına uyğun olaraq, hesabat ilində Miskinli, Çanaqçı və Samanlıq kəndlərinə təbii qaz verilmişdir. Hazırda qazlaşmanın səviyyəsi yaşayış məntəqələri üzrə 33, ev təsərrüfatları üzrə isə 54,2 faiz təşkil edir.

Cari il ərzində rayonun Əlinağılar və Qalakənd kəndlərinin təbii qazla təchiz edilməsi nəzərdə tutulur.

Gədəbəy şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması ilə bağlı işlər hesabat ilində sürətlə davam etdirilmiş, 14,8 kilometr magistral su xətti, 48,4 kilometr kanalizasiya xətti çəkilmiş, 276 ədəd hidrant,175 ədəd siyirtmə və 2275 ədəd sayğac quraşdırılmışdır. Su anbarlarında tikinti-quraşdırma işləri davam etdirilir.

Kəndlərdə infrastrukturun yenilənməsi və bərpası istiqamətində işlərə daim diqqət yetirilmiş, bu məqsədlə müxtəlif təşkilatların rayonda fəaliyyəti üçün şərait yaradılmışdır. Nəticədə İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin maliyyə dəstəyi ilə rayonun İnəkboğan və Səbətkeçməz kəndlərinə su çəkilmiş, Alnabat kəndində elektrik sistemi təmir edilmiş, Düz Rəsullu, Şınıx, Əlinağılar, Slavyanka və Çanaqçı kəndlərində abadlıq işləri aparılmışdır. Eyni zamanda, Qırmızı Xaç Komitəsi ilə aparılan qarşılıqlı işlər nəticəsində rayonun sərhəd kəndləri olan Qaravəlilər, Hacılar və Göyəli kəndlərində 140 nəfər imkansız ailənin hər birinə 1100 manat olmaqla, 140 min manat maddi yardım göstərilmişdir. Bundan başqa Qaravəlilər kəndində 240, Hacılar kəndində 154 ədəd elektirik dayağı yenisi ilə əvəz edilmiş və Aytəkin Məmmədov adına Göyəlli tam orta məktəbinə 900 metr məsafədən içməli su xətti çəkilmişdir.

Rayonda əhaliyə tibbi xidmət 121 çarpayılıq akademik Zərifə Əliyeva adına Gədəbəy Mərkəzi Rayon Xəstəxanası, 5 kənd xəstəxanası,19 həkim məntəqəsi, 25 tibb məntəqəsi, Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən göstərilir. Əhalinin sağlamlığı keşiyində 303 nəfər tibb işçisi dayanır ki, onlardan da 77 nəfəri həkim, 226 nəfəri orta tibb işçiləridir.

Keçən il RİH başçısı tərəfindən yerlərdə 53 səyyar görüş keçirilmiş və bu görüşlərdə 8036 nəfər iştirak etmiş, vətəndaşlar tərəfindən 232 təklif irəli sürülmüşdür.

Bu il Gədəbəy şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi, o cümlədən rayon mərkəzində Dövlət Bayrağı meydanının yaradılması, yaşayış məntəqələrində qazlaşma işlərinin sürətləndirilməsi, elektrik enerjisi təchizatı ilə bağlı infrastruktur layihələrin davam etdirilməsi, Heydər Əliyev Mərkəzinin tikintisi, Gədəbəy şəhərinin su və kanalizasiya sisteminin inşası işinin başa çatdırılması qarşıda duran mühüm vəzifələrdən biridir.

Hesabat yığıncağında Prezident Administrasiyasının məsul işçisi Əlibaba Əliyev çıxış edərək ölkədə görülən işlərdən, qarşıda duran vəzifələrdən danışmışdır.

Yığıncaq iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət göndərmişlər.

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin***
***bölgə müxbiri***